**Azərbaycanla Əlaqə**
**Avropada Mərkəzləşmiş Miqrasiya Nəzəriyyəsinə Etiraz**
**Tur Heyerdahl**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 3.1 (Yaz 1995)
© Azerbaijan İnternational

1994-cü il noyabrın sonlarında Doktor Tur Heyerdahl Azərbaycana səyahət etdi. Digər işlərlə yanaşı o, bir daha Qobustanın qədim mağaralarında qayıq petroqliflərini görmək istəyirdi.

Heyerdahl ilk dəfə olaraq Azerbaijan İnternational jurnalının səhifələrində onda yaranan şübhələri ictimaiyyətə çatdırır. Tur Heyerdahlın fikrincə Azərbaycanlılar onun doğma ölkəsi Norveç də daxil olmaqla bütün Skandinavlıların əcdadı ola bilər.

Bir çox illər məşğul olduğum qlobal tədqiqatda Azərbaycan milli rol oynamağa başlayıb. Məndə yaranan şübhələr ondan ibarətdir ki, indi Bakı ətrafında yerləşən Azərbaycan Respublikası bir zamanlar dənizlə sərhədlənən və Asiya və Avropadakı məntəqələrə mal və mühacirlər göndərən böyük və dinamik bir xalqdan qalmadır.

Ərəbistan yarımadasının ətrafında olan üç böyük sivilizasiyanın artıq eramızdan əvvəl 3000-ci ildə yüksək dərəcədə inkişaf etmiş və təşkil olunmuş sülalə şəklində yaranması və onların hər üçünün bir-birinə bənzəməsi uzun zaman məni təəccübləndirirdi. Belə bir təəssürat yaranır ki, qohum kahin-hökmdarlar öz ətraflarında olan hörmətli adamlarla hər hansı bir ərazidən daha primitiv sülalənin hakimiyyətdə olduğu və ya mədəni cəhətdən daha az inkişaf etmiş tayfaların yerləşdiyi ərazilərə gələrək, burada yerli əhaliyə öz hakimiyyətlərini qəbul etdirirdilər.

Qayıq Petroqliflər

Bəs onlar haradan gəlmiş olardılar? “Sivilizasiyalı insan üçün sıfır nöqtəsi” varmı? Bir neçə vaxtdır ki, mən əminəm ki, bu möcüzənin açması şübhəsiz bütün dünyada geniş yayılmış materik sahillərində və adalarda və hətta Saxara səhrasının dərinliklərində qurumuş su yollarında tapılan tarixdən əvvəlki qayıq petroqliflərindədir. Petroqliflər və qayıqların qaya təsvirləri insan memarlığının ilk nümunələridir və hətta yaşayış məskəni və məbədlərdən əvvələ aiddir. Mən belə təsvirlərə ekvatordan aşağıda Polineziyadan Arktik qurşaqda Şimali Norveçədək olan ərazilərdə rast gəlmişəm. Hər yerdə onlar bir daha sübut edir ki, vəhşi təbiət içərisində yollar yaranandan min il əvvəl qayıqlar ilkin insanın həyatında çox böyük rol oynayıb. Onlardan təhlükəsizlik və nəqliyyat vasitəsi kimi istifadə ediblər.

Öz keçmişimiz haqda bilməməyimiz çox dəhşətlidir. İnsan fəaliyyətinin 2 milyon ili ərzində buz yaranıb və əriyib, torpaq əmələ gəlib və yoxa çıxıb. Meşə çürüntüsü, səhra qumu, çay çöküntüsü və vulkanik püskürmələr yerin əvvəlki səthinin böyük hissəsini nəzərdən gizləmişdi. Dəniz səviyyəsi dəyişmişdir; hal hazırda planetimizin 70% su altındadır və sualtı arxeologiya sahil ərazilərdə hələ yeni başlayır. Biz dənizin dərinliklərində köhnə amfora və digər yüklə batmış gəmilər tapmağa öyrəşmişik. Lakin okeanın dibində digər insan qalıqlarının aşkar edilməsi fərziyyəsi isə hələ də elmi fantastik yazıçıların mövzusu olaraq qalır.

Norveç və Azərbaycanda Eyni Petroqliflər

Ola bilməz ki, ilkin Azərbaycanlıların Xəzər dənizi və Rus çayları boyunca yuxarı hərəkət edərək təsvir etdikləri gəmi petroqlifləri min il sonra Norveç boyunca Vikinqlərin əcdadlarının qoyduqları təsvirlərlə eynidir. Skandinaviyada qayıq petroqliflərinin iki müxtəlif növü mövcuddur. Onlardan hər ikisi Norveçdə geniş yayılıb. Bu növlərdən biri Qobustanda olan qaya təsvirlərinə bənzəyir. O, gəminin əsasını yaradan sadə oraq şəkilli xətlə və sonra da göyərtədə gəmi heyətini və ya qaldırılmış avarları göstərən şaquli xətlərlə göstərilmişdir.

Məşhur “Qatlanan Qayıqlar”

Digər gəmi növü isə demək olar ki, qısa və böyük gövdəsi, taxtadan olan daxili quruluşa malik “dəridən olan qayıqdır.”

Belə bir qayığın adı İslandiyalı Snor Sturlasonun 1241-ci ildə ölümündən əvvəl yazıya aldığı Norveç saqalarında qeyd olunmuşdu (Snor, Norveçin Vikinq hökmdarlarının saqaları. İngilis tərcüməsi: J. M. Stenersens Forlaq, Oslo 1987). Saqada deyilənə görə Vikinq hökmdarları Odin adlı ierarxdan törəmişlər. Odin parça kimi qatlana bilən Skitblatnir (Skidbladner) adlı gəmidə gəlmişdi. Odin “Aser” adlı torpaqdan gəlmişdi və ona çox vaxt “Asa-Odin” deyərək müraciət edirdilər. Snorun saqasında Aser kimi tanınan əhalinin əfsanəvi torpaqlarının dəqiq yeri verilmişdir. O torpaq Qafqaz dağları və Qara dənizdən şərqdə yerləşir. Həmin saqada deyildiyinə görə qatlana bilən qayığın sahibi Odin bütün adamları ilə birgə oradan şimala doğru hərəkət edərək Rusiya, Saksoniya və Danimarkanı keçdi və İsveçə gəldi. O, İsveçdə vəfat etdi. O indi Siquna adlanan qəbirüstü təpəcikdə basdırılıb. Asa-Odinin qayığı ilə saqası və onun yol qeydləri Skandinav tarixçiləri tərəfindən orta əsrlərdə uydurulmuş mif kimi qəbul edilirdi. Buna baxmayaraq Skandinavlar Qafqazlı hesab olunur. Lakin bəlkə də Odinin qayığı Aser torpağının doğrudan da Xəzər dənizi yaxınlığında Qafqaz dağlarından şərqdə yerləşdiyini göstərir. Əslində eramızdan əvvəl 5-ci əsrdə Yunan tarixçisi Herodot düz Asa-Odinin saqasında Aserlərin məskəni kimi verilən yerlərdə işlədilən heyrətamiz qatlanan qayıqları təsvir etmişdir. Həmin ərazilər hal-hazırda Azərbaycan və Ermənilərin torpaqlarına uyğun gəlir. Herodot yazırdı ki, bu ərazidə səyahət edən tacirlər dərilə örtülmüş taxta və qamışdan qurulan qayıqlardan istifadə edirdilər. Qayıqlar o qədər böyük idi ki, gəmi heyəti və yükdən əlavə onlar bir və ya iki baş uzunqulaq da daşıya bilirdi. Onlar çay boyunca aşağı üzərək Babilistanda öz mallarını və taxtanı satır, sonra isə gələcək səyahətlərinə hazırlaşmaq üçün çay boyunca yuxarı qayıtmaq məqsədilə dəriləri qatlayaraq onları uzunqulaqlara yükləyirdilər.

## Şifahi Ənənə yoxsa Nağıl?

Şəxsən mən əminəm ki, Snor uydurulmuş mif deyil, şifahi tarixi yazıya almışdır və artıq Skandinav əcdadlarımın onların sonradan Vikinq basqınları və ya tədqiqatları zamanı deyil, əvvəlcədən gəldikləri yeri tapmaq vaxtı gəlib çatıb. Əlbəttə ki, onlar buz dövrü sona çatdıqdan sonra buzlaqların altından gəlməyiblər. Deməli, onlar cənubdan köçüblər. Onlar Qafqaz tipinə aid olduqlarından və onların əcdadlarının Qafqaz dağlarından cənuba və Türkiyədən şimala yol qeydləri saxlandığından mən güman edirəm ki, indiki Azərbaycanlılar və Nors saqalarındakı Aserlər eyni köklərə malikdir və mənim əcdadlarım da buradan əmələ gəlib.

Heç şübhə yox ki, Skandinav və Azərbaycanlıların yazılmamış tarixi gəmilər və gəmiçiliklə başlamışdır. Onların hər ikisi su yollarına çıxa bilirdi və bu da onlara uzaqlara səyahət etmək və digər məskənləri öyrənmək imkanı verirdi. Azərbaycanlı çox asanlıqla öz daxili dənizlərindən qədimdə sivilizasiyanın böyük məskənlərinə üzə bilərdi. Oradan isə o zamanlar da gəmiçiliyə yarayan Volqa çayı ilə Moskva çayına gedə bilərdilər. Moskva çayının mənbələri Riqada Baltik dənizinə tökülən Dvina çayının mənbələrinə çox yaxındır. Riqada isə ilk xristian Norveç Vikinq hökmdarı Olav Truqvason anadan olmuşdu.

## Avropalı deyil, Qafqazlıyıq

Onda bu o deməkdir ki, təqribən 4000 il əvvəl şimali-qərbi Çində basdırılan və indi Çinli arxeoloqlar tərəfindən tapılan Qafqazlıların gəldikləri mərkəz şimali Avropa deyil, Azərbaycan olmuşdur. Həmin Qafqazlılar hündür, sarı saçlı, göy-göz və Qafqazlı cizgilərinə malik olduqlarına görə Çin arxeoloqları onların şimali Avropadan gəldiklərini düşünürlər (çox güman ki, bu səhv fikirdir). Müasir Azərbaycan alimlərinin dediklərinə görə Qobustan Muzeyində də daş dövrü ovçuları tərəfindən təsvir edildiyi kimi Azərbaycanın yerli əhalisi sarı saçlı və ağbəniz olmuşlar. Lakin sonradan Roma və Ərəb işğalları nəticəsində hal-hazırda mövcud olan Azərbaycan tipi meydana gəlmişdir.

Çində tapılmış 4000 min il yaşa malik mumiyaların yüksək səviyyəli mədəniyyətinə gəldikdə isə, demək olar ki, belə bir erkən dövrdə Şimali Avropada heç bir xalqın mədəniyyəti o dərəcədə inkişaf etməmişdi. Lakin dəridən düzəldilmiş qayıqlar vasitəsilə uzun zaman Babilistanda ticarət aparan Azərbaycanlı tacirlər o dərəcədə inkişaf edə bilərdi.

## Avropa-Mərkəzli Perspektivdən Kənarda

Bir alim kimi biz Avropalıların əsasını qoyduğu orta əsrlər baxışından əl çəkməliyik. Bu baxışa əsasən biz öz əcdadlarımızı dünyanın qalan hissəsini aşkar edənlər kimi təsvir edirik. Krit dənizçiləri Yaxın Şərqdən cənubi Avropaya əlifba və sivilizasiya gətirməmişdən əvvəl Asiya, Afrika və Mərkəzi Amerikada əlifba və dənizçiliyə malik inkişaf etmiş sivilizasiya mövcud idi. Avropa tarixinin başlanmasından əvvəl Afrikadan olan dənizçilər Kanar adalarında, Amerikadan olan səyahətçilər Vest Hinddə məskunlaşmış və yaşamaq mümkün olan hər bir Hind və Sakit okeanı adalarında Asiya və Amerika əhalisi məskən salmışdır. Gəmiçiliyə malik olub erkən ticarəti və mədəni meylləri ətrafa yayan və formalaşmaqda olan sivilizasiyanın əsas hissəsini təşkil edən Avropa deyil, məhz Azərbaycan olmuşdur.

Təqribən beş min il bundan əvvəl Misir, Şumer və Hind vadilərində qəflətən baş verən mədəni partlayışdan əvvəlki insan tarixinə dair bir çox şey hələ də aydın deyil. Lakin bir gün inkişaf etmiş texnologiya nəticəsində bütün suallara cavab qum və dənizin altında tapıla bilər. Alimlər həmin tarixdən əvvəlki kökləri və əlaqələri müəyyən etmək üçün indiki Azərbaycanın yerləşdiyi ərazinin xarici əlaqələrini öyrənməlidirlər.

---

Tərcümə: Gülnar Aydəmirova
Veb üçün hazırlayan: Arzu Ağayeva